# Bölgələrdə Xocalı faciəsinin ildönümü anılıb



## Tovuz

Rayonda əsrin faciəsi olan Xocalı soyqırımının ildönümü ilə əlaqədar "dəyirmi masa" keçirilmişdir.

Çıxış edənlər erməni millətçilərinin törətdikləri cinayət nəticəsində xalqımızın başına gətirilmiş müsibətlərdən danışmışlar. Qeyd edilmişdir ki, Xocalı soyqırımı Azərbaycan tarixinin ən dəhşətli və faciəli səhifələrindən biri, erməni millətçilərinin xalqımıza qarşı 200 il ərzində apardıqları etnik düşmənçiliyin növbəti mərhələsi olmuşdur. O da diqqətə çatdırılmışdır ki, Xocalı soyqırımına ilk dəfə hüquqi-siyasi qiymət Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra verilmişdir. Bildirilmişdir ki, 2020-ci ilin noyabrında qazanılan Zəfərlə Xocalının qisası alınmışdır. 2023-cü ilin sentyabrında isə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli Azərbaycan Ordusunun şücaəti sayəsində Xocalı, Xankəndi və digər ərazilərimiz mənfur düşməndən azad olunmuş, Azərbaycan bütün ərazilərində suverenliyini bərpa etmişdir.

Tədbirin sonunda Xocalı soyqırımına həsr edilmiş videoçarx nümayiş olunmuşdur.

---





## Tərtər

Xocalı soyqırımının 33-cü ildönümü ilə bağlı Qarabağ Regional Mədəniyyət İdarəsinin Tərtər nümayəndəliyində ədəbi-bədii tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb. Sonra tədbir iştirakçıları "Xocalıda məhv olmuş ümidlər" adlı filmi izləyiblər.

Tədbirdə çıxış edənlər ermənilərin Xocalının dinc sakinlərinə, qadınlara, qocalara, uşaqlara qarşı törətdikləri insanlığa sığmayan qəddarlıqlarından danışıblar. Bildirilib ki, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı törədilmiş bu soyqırımı cinayəti nəticəsində 613 Xocalı sakini, o cümlədən 106 qadın, 63 uşaq, 70 ahıl xüsusi amansızlıqla qətlə yetirilib, 1275 nəfər əsir götürülüb, onlardan 150-nin taleyi isə indiyədək naməlum qalıb. 8 ailə tamamilə məhv edilib, 25 uşaq valideynlərindən hər ikisini, 130 uşaq isə valideynlərindən birini itirib. 487 şəxs, o cümlədən 76 uşaq məruz qaldıqları ağır fiziki və psixoloji işgəncələrdən ömürlük əlilə çevrilib. Xocalı soyqırımı törədilən zaman "Müharibə qurbanlarının müdafiəsi haqqında" Cenevrə konvensiyaları kobud şəkildə pozulub.

Diqqətə çatdırılıb ki, Xocalı soyqırımı ilə bağlı beynəlxalq səviyyədə məlumatlılığın artırılmasına, bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınması və qətliama siyasi-hüquqi qiymətin verilməsinə yönəlmiş "Xocalıya ədalət!" kampaniyası Heydər Əliyev Fondunun təşkilatçılığı ilə dünyanın bir çox ölkəsində davamlı olaraq həyata keçirilir. Kampaniya nəticəsində 18 dövlətin qanunvericilik orqanı, ABŞ-nin 24 ştatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı və Türk Dövlətləri Təşkilatı tərəfindən bu qəddar qətliam pislənilib, soyqırımı kimi qiymətləndirilib, bununla bağlı müvafiq qərar və qətnamələr qəbul edilib.

Tədbirdə "Qarabağ artıq azaddır" adlı ədəbi-bədii kompozisiya, həmçinin faciəyə həsr edilmiş kitab sərgisi nümayiş olunub.

Azərbaycan.- 2025.- 26 fevral (№ 43).- S.11.